# KƏHRƏBA QAŞLI ÜZÜK



*Rəsul RƏXŞANLI*

Xallı kişi koridorla redaksiyaya doğru fərəhlə irəlilədi, otağa girəndə şöbə müdiri qaş-qabağını salladı. O salam verib şkafın küncündəki stulda əyləşdi. Müdir nəsə yazırdı. Katibə müdirin üzünə baxıb başını kompüterdə işə qarışdırdı. Müdir haçandan-haçana saymazyana dedi ki, baş redaktor yoxdur, iş dalınca gedib. Xallı nəzakətlə bildirdi: – Gözləyərəm. – Nə vaxt qayıdacağı məlum deyil, - müdir başını qaldırmadan sərt səslə dedi. – Özü mənə bu gün, bu saatda gəlməyimi deyibsə gözləməyim məsləhətdi. Qapını aralayan redaksiyanın yaşlı əməkdaşı gülümsəyərək baş redaktoru soruşdu. Müdir başını o yan - bu yana tərpədəndə əməkdaş qapını örtdü. Qayğılı görünən çatmaqaşlı qadın salamlaşıb müdirin qarşısında dayandı. – Dünən işə gəlməmisən, - müdir ona irad tutdu. – Axı xəbərdar eləmişdim. Ərimin immuniteti zəifləyib, çox aşağıdı, həkimə aparmışdım. Onlar da müayinə edirlər, aparatlardan keçirirlər, dərmanlar yazırlar. Xeyli pul sərf edilir. Nə olsun? Faydası yoxdu. Xallı söhbətə qarışdığına görə üzr istəyib meyvə-tərəvəzlə immuniteti qaldırmaq haqda qadı-na məsləhət verdi. Sonda isə dedi: – İnternetdə əczaçılıq fəaliyyəti ilə məşğul olan, yəni dərman hazırlayan bir alimin məlumatı yayılıb. Vaxtilə dünyanın ən nəhəng dərman şirkətlərindən birində işləyibmiş. Yazıb ki, şirkətin sahi-binin tamamilə məxfi tapşırığı olubmuş öz əczaçısına. Xəstəni ölməyə qoymayan, halını babatlaş-dıran, lakin ən önəmlisi isə müalicə eləyib tamam sağaltmayan və illərcə babat halda saxlayan dər-manlar yaratsın. Hər sağalan və ya ölən xəstə şirkət üçün itirilən müştəri deməkdir. Sahibinin məqsə-dini anlayan alim özünü anlamazlığa vurub. Şirkətin sahibinə guya gizlincə xəbərçilik eləyib ki, əcza-çıların bəzisi fərsizdi, nəhəng maaşlar alıb əvəzində xəstəliyi sağaltmağı bacarmayan dərmanlar ha-zırlayırlar. Bu da şirkətin nüfuzuna xələl gətirir. Sahibkar da bundan xəbərsiz kimi dil-ağız eləyib, ələc qılacağına alimi inandırıb. Eyni zamanda bu xəbəri yaymamağı tapşırıb. Bir müddət ötüb, alim sözü-nü sahibkara təkrar xatırladıb. O da neyləsə yaxşıdı? Bəhanə tapıb alimi işdən qovub. Müdir başını qarşısındakı qovluqdan qaldırmadan təkəbbürlə sual verdi: – Təəccüblü nədi, - özü də cavablandırdı, - hərə öz mənafeyini güdür də. Xəstə sağalmağa can atır, sahibkar isə varlanmağa. Xallı kişi gözucu ona baxıb rəvan səslə soruşdu: – Bəs ədalət? Bu əbləh sahibkar ədaləti gözləməməlidirmi? – Bura söyüş yeri deyil, nəzakət qaydaları gözlənilməlidi, - müdir xallıya irad tutdu. Onun sözünə məhəl qoymayan xallı sözünü bitirdi: – Gözünə döndüyüm alim də şirkətin sirrini sosial şəbəkələrdə yayıb. Odur ki, dərmanlara çox da aludəçilik bir şey deyil. Kim əlini ürəyinin başına qoyub əminliklə deyə bilər ki, digər şirkətlərdə iş-lər düzgünlüklə, ədalətlə qurulub? Üstəlik də onların dərmanlarının guya yan təsiri yoxdur o biri or-qanlara, kağızlarnda yazıldığı kimi. KImsə deyə bilərmi? Şirkətlər malların satsınlar deyənə bəzi məqamları gizlədirlər xəstələrdən. Yaxşısı budur ki, bitki mənşəlilərə güc verin, xeyrini görəcəksiz. Be-lələri bəzən təsirini tez göstərməsələr də ziyansızdılar, bu da şərtdir. Çatmaqaşlı qadın qəhərli baxışlarını xallıdan çəkmədi, daha nələrsə eşitmək istəyirdi. Bunu anlayan xallı əlavə elədi: – Bir məqam da var. Şəhərdə söhbət gəzir, yəqin özünüz də eşitmisiniz. Bizim dərman alveri edən biznesmenlərimiz nələrlə məşğul olurlar... Dərman aldıqları şirkətlərlə gizli danışığa girirlər. Onlar üçün az təsirli dərmanlar istehsal etsinlər. Qutuların, şüşələrin üstünə əlası olduğu etiketi yapış-dırıb daşıyırlar camaatımıza. Nəticədə ikiqat qazanırlar, belə dərmanlar ücüz başa gəlir, həm də gec sağaldır, yəni xəstələrimiz çox almaq məcburiyyətində qalırlar. Nəzarət edəsi şəxslər də guya görmür-lər, xəbərləri yoxdu. Əlindəki vərəqlərdən gözünü çəkməyən baş redaktor müavini salam-kalamsız otağa girdi və baş redaktorun kabinetinə keçdi. Xallı ehmalca şöbə müdirinə baxsa da qadın masasındakı balaca dairəvi güzgüdən gözlərini çəkmədən saç düzümünü hamarlamaqda davam elədi. Müavin kabinet-dən çıxarkən arxasınca baş redaktor boylandı: – Hökmən düzəlişlər eləsin, özün bir də bax, sonra mənə gətirərsən, - dedi və xallını görüb kabinetə dəvət elədi, - məqalənizi qəzetimizin dünənki sayında buraxdıq. Qonorarınızı alacaqsınız. Sənəd, fotoşəkil, nə lazımsa gətirib verərsiz şöbə müdirinə. Sizi müxbir götürəcəyik, bazar ertəsi gələrsiz. O, təşəkkürünü bildirdi, lazım olanları gətirdiyini dedi və şöbə müdirinə təqdim elədi. Müdir sənədləri gözdən keçirdi. Xallı otaqdan çıxıb qapını örtən kimi o əsəbi halda: – Müxbir düzəlmək istəyir,- dedi, - buna bax. Qulağının ardını görərsən. – Deyirlər, məqaləsi şefin xoşuna gəlib, - katibə cılız səslə bildirdi. – Dedim ki, qulağının ardını görər, - əli ilə qarşısındakı kağızları göstərdi, - jurnalistikanı bitirmə-yib, deməli, nə alınır? Aydın məsələdi, kiməsə yazdırıb. Beləsi işə düzəlsə nə baş verəcək? Bizə başağ-rısı. Onun torbasını tikərəm. Tələbəlik yoldaşımı götürtdürəcəyəm, neçə illər qəzetdə, jurnalda, radioda işləyib. Müdir xallı haqda məlumatı baş redaktora çatdırıb tələbəlik yoldaşını işə götürməyi xahiş elədi. O da fikrini qəti və qısa bildirdi: – Gəlsin, baxaq. Sabahı müdirin tələbəlik yoldaşı baş redaktorun qəbulunda oldu. Söhbət elədilər. Onun haq-qında baş redaktorda xoş fikir yarandı. Ona tapşırıq verdi, məqalə yazmalıdı, bir həftəyə. – Yaz gətir, hər şey yaxşı olacaq,-müdir tələbəlik yoldaşına ürəkdirək verdi. Bazar ertəsi xallı kişi işə gələndə müdir ona ağzını açmağa macal vermədi. Barmağı ilə kabi-netin qapısını göstərib onu baş redaktorun yanına göndərdi. Müdirin sifətinin turşumuş ifadəsindən o anladı ki, bu-arada nəsə olub, ya da nəsə ola bilər. Baş redaktor onun salamına cavab verdi: – Hə, yaxşı gəlmisiniz, sizə daha bir tapşırığım olacaq. Tapşırıq verdiyi ikinci məqalənin mövzusunu bildirən baş redaktor ona yazmağa bir həftə möhlət ayırdı. Bu dəfəkinin birinciyə nisbətən daha ağır yazı olduğunu dərk edən xallı razılıq verdi. O liftlə enərkən güzgüdəki əksinə göz gəzdirdi. Barmaqlarını aralamaqla sağ əlini daraqlayıb alnına dağılmış saçlarını yığdı və tapşırığın qəlizliyi haqda düşünməkdə davam elədi. Olsun, nə qədər çətin iş olsa da həvalə edilibsə yazmalıdı. İşə götürülməsə də qonorarını alacaq, oranın qonorarı yük-səkdi. Üstəlik də bu cür nüfuzlu qəzetdə məqalələri dərc edilməsiylə öyünə bilər. Səki qırağında cərgə ilə əkilmiş ağacların altıyla addımlayaraq yol boyu baş redaktor haqda düşündü. Bu dəfə nədənsə fərqli idi, soyuq rəftarlı dəymişdi gözünə, bəlkə də qayğılıydı, axı kiminsə məqaləsini oxuyurdu, qeydlərini edirdi. Eşitdiyinə görə baş redaktor güclü jurnalistlərdən sayılır, işlə-yəndi, həm də ədalətli adamdı. Bu səbəbdən buraya, ona üz tutmuşdu. Eyni zamanda fikrinə gəldi ki, bəlkə bunun da dəstəsi var, haqqında rəvayətlər yayırlar. Nə bilmək olar? Adamları tanımaq çətindi, çünki bəziləri ağlını işdən çox əsil sifətini gizlətməyə sərf eləyir. Nə isə, ikinci tapşırığı da yerinə ye-tirəcək. Sonrası daha onluq deyil. O, ikinci yazısını gətirəndə müdirdən fərqli olaraq katibə onun salamını cavabsız qoymadı, dilucu da olsa “salam” dedi. Baş redaktorun kabinetindən o qədər də güvənli çıxmayan xallıya üz tutdu: – Uşağın bağırsaqlarında qurd var. Təmizləyə bilmirik, dərmanların təsiri sanki yoxdu. Ney-ləyək? Bəlkə bunu da bilirsiz? Xallı özünü ələ alıb nələr gərəkli olduğunu söylədi, cavabında katibədən xoş söz eşitdi. O, otardan çıxar-çıxmaz müdir sifətini turşudub katibəni süzdü. İşə qəbula gəlməyə hazırlaşan hər iki namizədin yazısını baş redaktor özü oxudu. Xallının məqaləsinə dərkənar qoyub çapına icazə verdi. Qəzetin hər günkü sayını səhərlər köşkdən alıb izlə-yən xallı qəzet səhifəsində məqaləsini görəndə üzünün qırışları açıldı, ümid yarandı, özünə gəldi. İş yerində oxudu, baş mühəndisdən icazə alıb getdi. O. baş redaktorun qəbuluna tələsdi. İşə götürü-ləcəyinə tam əmin olmasa belə, hər halda bu da uğurdu, işıq ucu görünən uğur. Otağa girərkən müdir onun salamını almadı, katibə ötəri olsa da cavablandırdı. Müdir ona baxmadan: – Baş redaktorun əlində işi var, gözləmək lazımdı, - əsəbi halda deyib otaqdan çıxdı. – Uşağa təsiri oldumu dediklərimin, - xallı kişi katibəyə sual verdi. Katibə cavabını gecikdirmədi: – Təsiri var, hiss edirik, -ehmalca gülümsəyib qısaca bildirdi və qapıya baxıb başını işə qatdı. Müdir xeyli gözlətdi xallını. Redaksiya işçilərini kabinetə buraxırdı. O təmkinlə əyləşib üzünü kabinetin qapısına çevirmişdi. Otağa daxil olan sürücü baş redaktorun kabinetinin qapısını araladı: – Maşın hazırdı. Baş redaktor kabinetdən çıxanda xallı ayağa qalxıb onu salamladı. – Salam, - dedi o da, - məqalənizi vermişik, qonorarı yazılacaq. Yaxşısı budu içəri gələsiniz. Baş redaktor kabinetə qayıtdı, arxasınca içəri girib kabinetin qapısını örtən xallı onun qarşı-sında dayandı. Baş redaktor onu qıyğacı süzərkən dodaqları qaçdı: – Bu sirri bəlkə açasınız? Jurnalistikanı bitirməmisiniz, di gəl ki, yazırsınız, qəzetdə çalışmaq istəyirsiniz. Söyləyin görüm. – Məktəb illərindən yazmağa həvəsim olub. Xırda yazılarımı dərc eləyiblər. Jurnalistikadan təhsil almağa atam razılıq vermədi. – Niyə? Xallı baş redaktoru süsdü, baxışlarını ondan çəkdi. – Səbəbi olmalıdı, niyəsi olmalıdı. Deyin, utanmayın. Kələfin ucunu mənə verin, özüm açaram. – Jurnalistika peşə deyil, sənət deyil, özünə ciddi peşə tap, deyirdi atam. – Elə isə bəs jurnalistika nədi ? Xallı susub başını yüngülcə salladı. – Burasını da açıqlayın. Maraqlıdı, incimərəm. – Bağışlayın, avaraçılıqdı, onun fikrincə, - deyən xallı tez də əlavə elədi,- mənsə öyrənirdim yaz-mağı, digər ixtisas üzrə universitetdə oxusam da. Vaxtaşırı yazılarım çıxır qəzet-jurnallarda. İşə isə götürməkdən im tina eləyirlər, hərənin öz bəhanəsi olur, yəqin ki, jurnalist diplomum olmadığından. – İşləyirsinizmi? – Hə, ixtisasım üzrə, yəni diplom aldığım sahədə. – Əməkhaqqısa fərli deyil. – Niyə ki? Fərlidi, iş ürəyimcə deyil. Yazmağadı həvəsim. Onlar birlikdə kabinetdən çıxarkən baş redaktor şöbə müdirinə tapşırdı: – Bu cavan vətəndaşı xüsusi müxbir vəzifəsinə gütürü-



rük, əmrini hazırla. Sabahdan işə çıxacaq. Eşitdinmi? Xallı təşəkkürünü söyləməyə tələsdiyindən müdiri qabaqladı: – Çox sağ olun, etimadınızı doğrultmaqdan ötrü əlimdən gələni əsirgəməyəcəyəm. Müdirin qanı qaralmışdı. Hirsindən çaş-baş qalmışdı. Mobil telefonu səs salanda zəng calanın kim olduğuna baxmadan söndürdü və irişə-irişə: – Hə, eşidirəm, - baş redaktora cavab verdi. Baş redaktorla xallı otağı tərk edəndə mobil telefona təkrar zəng gəldi. Tələbəlik yoldaşı idi. İşlə bağlı soruşdu. – Bəyənməyib yazını baş redaktorumuz, çalışaram, - yumşaq səslə müdir cavab verdi, - əlim-dən gələni əsirgəmərəm, amma tezliklə baş tutana oxşamır. – Vəd etdiyim hədiyyəni almışam, ümidvaram sənin də ürəyinə yatacaq. Üzüyün kəhrəba qaşı-nın ətrafı qızılla zövqlə işlənib. Həvəslə taxacaqsan. Gətirib göstərimmi? – Tələsmə, gözləyək, tələsmə, səbirli olaq. Bizdə mümkün olmasa hansısa redaksiyada sənə iş düzəldəcəyəm. Səni işsiz qoymaram. Kimsəyə ağız açma, gözlə. Bağışla, işim çoxdu, - deyib həmsöh-bətinin cavabını dinləmədən müdir telefonun düyməsini basıb söhbəti kəsdi. Səhər bəzənib düzənən xallı eynəyini taxdı, portfelini əlinə alıb evdən çıxdı. Əlini qoltuq cibi-nə vurdu, hə, çoxrəngli mürəkkəblə yazan avtoqələmi yerində idi. Onun gözləri gülürdü. O həvəslə işə gedirdi. Təzə iş yerinə – redaksiyaya tələsirdi.

**Mart, 2020.**